# *Devid BEDNAR:* "Dini ayrı-seçkiliyin kəskin miqyas aldığı dövrdə Azərbaycanın sahib olduğu dəyərlər çox əhəmiyyətlidir"

Mayın 26-da xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ-nin Yuta ştatında yerləşən "İsa Məsih Sonuncu Günlərin Müqəddəsləri" Kilsəsinin 12 Həvarilər Kvorumunun üzvü Devid Bednarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir C.Bayramov çoxmillətli və multikonfessional ölkə olaraq Azərbaycanda bütün dinlərə etiqad edənlərin sülh və əmin-amanlıq içərisində yaşadığını deyib. Eyni zamanda hazırda Azərbaycanın mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qlobal mərkəzlərindən birinə çevrildiyini qeyd edib. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidentinin müəllifliyi ilə "Bakı prosesi" təşəbbüsü də daxil olmaqla, bir sıra qlobal əhəmiyyətli təşəbbüslərin irəli sürüldüyü, BMT-nin Sivilizasiyalararası Alyansının Qlobal Forumu da daxil olmaqla ölkəmizin bir sıra mühüm beynəlxalq tədbirlərə ev-sahibliyi etdiyi bildirilib.

Görüşdə həmçinin müxtəlif xalqların mədəni və dini irsinə hərtərəfli diqqət və qayğının təmin edildiyi Azərbaycanın nümunəvi dövlət-din münasibətlərinin mövcud olduğu ölkələrdən biri olduğu, belə bir şəraitdə xristian həmvətənlərimizin öz adət-ənənələrini, dini inanclarını, mədəniyyətlərini sərbəst şəkildə yaşadaraq ölkəmizin sosial-mədəni həyatının bütün sahələrində fəal iştirak etdikləri müqabil tərəfin diqqətinə çatdırılıb.

Nazir C.Bayramov eyni zamanda 30 illik dövrdə ərazilərimizin Ermənistan tərəfindən işğalı və etnik təmizləmə fəaliyyəti, eləcə də post-münaqişə dövründə ölkəmizin sülh və sabitliyin təmin edilməsi, bərpa və quruculuq işləri barədə məlumat verib. Ermənistan tərəfindən prosesə maneçilik cəhdləri və davam edən mina təhdidləri vurğulanıb.

Devid Bednar Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələri və dinlərarası dialoqa töhfə verən mühüm təşəbbüsləri barədə məlumatlı olduğunu söyləyib. Beynəlxalq müstəvidə dini, irqi və etnik zəmində ayrı-seçkiliyin xüsusilə kəskin miqyas aldığı hazırkı dövrdə Azərbaycan cəmiyyətinin sahib olduğu dəyərlərin olduqca əhəmiyyətli olduğunu bildirib. O, kilsənin müxtəlif proqramları çərçivəsində ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb.

Tərəflər görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Azərbaycan. - 2023.- 27 may.- S.2.